# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il
11






Hekayə



Şeir



Nağıl

**RAFİQ YUSİFOĞLU**

# 12 NOYABR - KONSTİTUSİYA GÜNÜ



## KONSTİTUSİYA

Dünyada çox kitab var
Bir-birindən maraqlı.
Beləsini tapmazsan
Gəzsən əli çıraqlı.

Hər kəlməsi, hər sözü
Ürəyimizdən keçir.
Ölkənin rəhbəri də
O kitaba and içir.

O kitaba sədaqət-
Yurduma sədaqətdir,
Xalqıma sədaqətdir,
Orduma sədaqətdir.

Ona məhəbbətimiz-
Bir kükrəyən dənizdi.
O kitab hamı üçün
Müqəddəsdi, əzizdi.

İçindəki sözlərin
Bənzəri var işığa.
O, doğru yol göstərir
Ağsaqqala, uşağa.

Qanunlara güvənir
Düşəndə insan dara.
Kompas tək yol göstərir
O kitab insanlara...

Rəssam
İlqar



# NOYABR - KƏND TƏSƏRRÜFAT İŞÇİLƏRİ GÜNÜ

## KƏNDLİ NƏĞMƏSİ

Bir zəhmətkeş kəndliyəm,
Heç mənim əvəzim var?
Bağımda, bostanımda
Meyvəm, tərəvəzim var.

Hər il nə qədər məhsul,
Süd, qatıq, pendir, kərə,
Meyvə, tərəvəz, taxıl
Göndərirəm şəhərə.

Dost üzünə həmişə
Açıq olur qapılar.
Bostanımda, bağımda
Can dərmanı tapılar.

Yemiş, qarpız yeyəndə
Bal, qənd çıxır yadından.
Becərdiyim məhsulun
Doymaq olmaz dadından.

İnsan gərək həmişə
Səpə, becərə, əkə.
Qoymaram ki, adamlar
Aclıqdan korluq çəkə.

Kəndli iş başındadı,
Neçə gündü oyaqdı.
Şəhər kəndə arxadı,
Kənd şəhərə dayaqdı.

Torpağı şumlayıram,
İş cövhərdi əl üçün.
Əkirəm, becərirəm
Vətən üçün, el üçün.



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. №